# MƏNTƏQƏ SEÇKİ KOMİSSİYA ÜZVLƏRİ ÜÇÜN SEÇKİLƏRİN TƏHLÜKƏSİZLİYİ HAQQINDA TƏDRİS MODULU

Azad, ədalətli və etibarlı seçkilərin keçirilməsini təmin etmək üçün təhlükəsiz seçki mühitini yaratmaq lazımdır ki, seçicilərin fəallığına, seçkilərin nəticələrinin legitimliyinə və cəmiyyət tərəfindən bu nəticələrə olan inamlarına neqativ təsir göstərə bilən faktorlar aradan qaldırılsın.

Təhlükəsiz və dinc seçki mühiti seçkilərə cəlb olunan tərəflər tərəfindən fəaliyyətin tam həyata keçirlməsi üçün zorakılıq və təzyiq olmadan seçicinin konstitusiya hüququnun realizasiya imkanlarını və zəmanətini yaradan şəraitin təmin olunması deməkdir. Yuxarıda qeyd olunan şərtlərin təmin olunması seçkilərə cəlb olunan bütün tərəflərin cavabdeh olmasını təqdim edir.

Seçkilərin təhlükəsizliyinin təmin edilməsi yaxşı planlaşdırma tələb edir, o birinci mərhələdə risklərin müəyyənləşdirilməsi və qiymətləndirilməsini, lakin sonra prevensiya və hüquq pozuntularına qarşı tədbirlərin düzgün müəyyən edilməsini əhatə edir.

Seçkilərin təhlükəsizlik planının həyata keçirilməsi seçki administrasiyası ilə hüquq-mühafizə orqanları arasında səmərəli ünsiyyətin ehtiyacı ilə əlaqədardır.

Təqdim edilmiş tədris modulu Məntəqə Seçki Komissiya üzvləri üçün göstərişləri əhatə edir:

☑ Səsvermə gününə kimi olan müddətdə seçkilərin təhlükəsizliyini təmin etmək məqsədi ilə keçiriləsi tədbirlər haqqında;
☑ Səsvermə günü seçkilərin təhlükəsizliyi məqsədi ilə keçiriləsi tədbirlər haqqında;

## Səsvermə gününə kimi olan müddətdə seçkilərin təhlükəsizliyini təmin etmək məqsədi ilə keçiriləsi tədbirlər

Səsverməyə hazırlıq və onu keçirmək məqsədi ilə Məntəqə Seçki Komissiyası Dairə Seçki Komissiyasından seçki inventarlarını və sənədlərini alır. Məntəqə Seçki Komissiyasının sədri seçki bülletenlərinin, xüsusi zərflərin, komissiyanın möhürlərinin, yekun protokolların və digər seçki sənədlərinin saxlanılmasına və verilməsinə şəxsən cavabdehdir.

1. Əgər seçki **inventarının, sənədlərin daşınması zamanı,** onların vaxtında çatdırılmasında gecikmə, zədələnmə və ya məhv olma təhlükəsi yaradılarsa, aşağıda verilmiş göstərişlərə uyğun olaraq hərəkət edin:

   1.1. Əgər Məntəqə Seçki Komissiyasına seçki inventarının, sənədlərin aparılmasına vətəndaşlar tərəfindən gediləsi yolun kəsilməsi maneə törədərsə:

- Vətəndaşlara vəziyyəti izah etməyə çalışın;
- Seçki inventarını, sənədlərini nəzarətsiz qoymayın;
- Vətəndaşlar tərəfindən sizin müraciətinizə laqeydlik göstərilərsə, dərhal hüquq-mühafizə orqanlarına məlumat verin;
- Dairə Seçki Komissiyasına məlumat bildirin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin.

1.2. Əgər Məntəqə Seçki Komissiyasına seçki inventarının, sənədlərin aparılmasına vətəndaşlar tərəfindən gediləsi yolun kəsilməsi maneə törədərsə və bu açıq şəkildə qeyri-qanuni məqsəd üçün seçki inventarının, sənədlərin oğurlanması, pozulması və ya ləğv edilməsini ifadə edərsə:

- Dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat bildirin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin.
- Seçki inventarını,sənədlərini nəzarətsiz qoymayın;
- İmkan daxilində faktı video çəkilişlə (telefon və yaxud kameradan istifadə edərək) qeydə alın.

1.3. Əgər Məntəqə Seçki Komissiyasına seçki inventarının, sənədlərin aparılmasına yol hadisəsi mane törədərsə:

- Dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat bildirin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin.
- Seçki inventarının, sənədlərinin qorunmasını təmin edin və nəzarətsiz qoymayın;
- İmkan daxilində şahidləri müəyyənləşdirin;
- İmkan daxilində sürücünü müəyyənləşdirin;
- İmkan daxilində faktı video çəkilişlə (telefon və yaxud kameradan istifadə edərək) qeydə alın.

2. Əgər seçki **inventarının, sənədlərin saxlanılması zamanı** onların vaxtında çatdırılmasında gecikmə, zədələnmə və ya məhv olma təhlükəsi yaradılarsa, aşağıda verilmiş göstərişlərə uyğun olaraq hərəkət edin:

2.1. Əgər bina seçki sənədlərinin təhlükəsiz saxlanılmasına zəmanət vermirsə, Məntəqə Seçki Komissiyası ilə razılaşma əsasında binanın qorunmasını tələb edin və qeyd olunanlarla bağlı hüquq-mühafizə orqanlarını xəbərdar edin.

2.2. Əgər binanın yaxınlığında, yaxud məhz binada yanğın baş verərsə:

- Dərhal hüquq-mühafizə orqanlarını və Fövqəlada Hallar İdarəetmə Agentliyini xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat verin;
- Dairə Seçki Komissiyası, Hüquq-mühafizə orqanları və Fövqəladə Hallar İdarəetmə Agentliyi tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin;
- İmkan daxilində seçki inventarını və sənədlərini təhlükəsiz yerə çatdırın.

2.3. Əgər bina fəlakət nəticəsində zədələnərsə, yaxud onun zədələnməsinə real təhlükə (suyun daşması, güclü yağış, külək) yaranarsa:

- Dərhal Fövqəladə Hallar İdarəetmə Agentliyini xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat verin;
- İmkan daxilində seçki inventarını və sənədlərini təhlükəsiz yerə çatdırın.

## Səsvermə günü seçkilərin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə keçiriləsi tədbirlər

Səsvermə günü səsvermə binasında asayişin qorunmasına rəhbərlik edən və ona cavabdeh olan şəxs Məntəqə Seçki Komissiyasının sədridir. Məntəqə Seçki Komissiyasının sədri tərəfindən səsvermə binasında asayişin qorunması məqsədilə alınan qərarların yerinə yetirilməsi seçki komissiyasının üzvləri, səsvermə binasında olmaq hüququna malik olan şəxslər və seçicilər üçün məcburidir.

Komissiyanın fəaliyyətinə maneçilik törədildiyi və asayişin pozulduğu təqdirdə, Məntəqə Seçki Komissiyasının yerləşdiyi binadan həmin şəxsin çıxarılma məsələsi barəsində Məntəqə Seçki Komissiyasının sədri qərar verir, bu barədə müvafiq akt tərtib olunur, buna komissiyanın sədri və üzvləri imza atırlar. Aktda həmin şəxsin adı və soyadı, seçki dairəsinin və məntəqəsinin nömrələri, qanun pozuntusunun mənası və onun baş verdiyinin dəqiq vaxtı qeyd olunur.

1. Əgər **səsvermə binasında** səs vermə prosesinin gedişinə və yaxud seçicilərin iradəsinin azad göstərməsinin təmin edilməsinə təhlükə yarandığı təqdirdə, aşağıda verilmiş göstərişə uyğun olaraq hərəkət edir:

1.1. Əgər vətəndaş və yaxud vətəndaşlar qrupu, komissiya sədrinin göstərişinə baxmayaraq, **qanunsuz, güc istifadə edərək səsvermə binasına daxil olmaq istəyirsə:**

- Dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat verin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin;
- İmkan daxilində faktı video çəkilişlə (telefon və yaxud kameradan istifadə edərək) qeydə alın;
- Lazım gəldiyi təqdirdə, səsvermə otağının giriş qapısını bağlayın;
- Pozuntunun aradan qaldırıldığı andan seçki komissiya sədrinin razılığı ilə polis işçiləri səsvermə binasını tərk edirlər.

## NƏZƏRƏ ALIN

Səs vermə vaxtı səsvermə binasını seçkilərin ümumilik, bərabərlilik və seçicilərin iradəsini azad göstərməsini təmin etmək mümkün olmadığı təqdirdən başqa bağlamaq, səs verməni ləğv etmək yaxud dayandırmaq qadağandır.

Səsvermə binasının müvəqqəti bağlanılması, səsvermənin ləğv etməsi, yaxud dayandırılması haqqında qərarı Məntəqə Seçki Komissiyasının sədri təkbaşına alır, ona bu qərarın alınması üçün tam məsuliyyət verilir.

Səsvermə binasının müvəqqəti bağlanıldığı təqdirdə, səsvermənin ləğv edilməsi, yaxud dayandırılması anında komissiya sədrinin müvafiq qərarını təsdiqləmək yaxud ləğv etmək haqqında Məntəqə Seçki Komissiyası qərar qəbul etməyə məcburdur.

Səsvermə binasının açılması və səsvermənin davamlılığı haqqında qərarı Məntəqə Seçki Komissiyasının sədri sərəncamla alır.

**Səsvermənin dayandırılması haqqında** komissiya sədrinin qərarının təsdiqlənməsi yaxud ləğv edilməsi haqqında komissiyanın qərarı Qeydlər kitabında əks olunur, səs vermənin dayandırlıma səbəbi və vaxtı qeyd edilir, bu isə komissiya üzvlərinin imzaları ilə təsdiqlənir.

**Səsvermənin ləğv edilməsi haqqında** komissiya sədrinin qərarının təsdiqlnməsi yaxud ləğv edilməsi haqqında komissiyanın qərarı sərəncamla alınır, ona səs vermənin dayandırlıma səbəbi və vaxtı qeyd edilir.

Səsvermənin dayandırılma səbəbi aradan qaldırdıqda komissiya sədrinin sərəncamı ilə səsvermə yenilənəcək. Əgər səsvermə ləğv edilmiş elan olunsa, o yenilənməyəcək.

1.2. Əgər vətəndaş və ya vətəndaşlar qrupu yaxud səsvermə binasında olmaq hüququ olan şəxs tərəfindən komissiya üzvü ilə **qarşılıqlı mübahisəyə görə səsvermə prosesinin gedişatı pozulursa,** aşağıda verilmiş göstərişə uyğun olaraq hərəkət edir:

- Asayişi pozan şəxslərə səsvermə binasında göstəriş verin və izah edin ki, əks halda səsvermə binasından çıxardılacaqlar;
- Tələbin laqeyd qarşılanması halında, komissiya səsvermə binasından həmin şəxslərin çıxarılması haqqında qərar qəbul etməlidir, bu barədə müvafiq akt tərtib olunmalıdır;
- Əgər həmin şəxs komissiyanın onun haqqında çıxartdığı qərara riayət etmirsə, dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat verin;

- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin;
- İmkandaxilində faktı video çəkilişlə (telefon və yaxud kameradan istifadə edərək) qeydə alın;
- Seçki sənədlərini (bülletenləri) və seçki qutusunun qorunmasını təmin edin;
- Lazım gəldiyi təqdirdə, səsvermə otağının giriş qapısını bağlayın;
- Pozuntunun aradan qaldırıldığı andan seçki komissiya sədrinin razılığı ilə polis işçiləri səsvermə binasını tərk edirlər.

1.3. Əgər vətəndaş və ya vətəndaşlar qrupu yaxud səsvermə binasında olmaq hüququ olan şəxs **seçki bülletenlərini və ya sənədləri səsvermə binasından qanunsuz çıxartmağa, seçki qutusuna bülletenləri atmağa, seçki qutusunun möhürünün bütövlüyünü pozmağa, seçki sənədlərini yaxud seçki qutusunu zədələməyə** cəhd edərsə, aşağıda verilmiş göstərişə uyğun olaraq hərəkət edin:

- Qanunu pozanı dayandırın;
- Dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat verin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin;
- Lazım gəldiyi təqdirdə, səsvermə otağının giriş qapısını bağlayın;
- İmkan daxilində faktı video çəkilişlə (telefon və yaxud kameradan istifadə edərək) qeydə alın;
- Pozuntunun aradan qaldırıldığı andan seçki komissiya sədrinin razılığı ilə polis işçiləri səsvermə binasını tərk edirlər.

1.4. Əgər vətəndaş və ya vətəndaşlar qrupu yaxud səsvermə binasında olmaq hüququ olan şəxs səsvermə binasında səsvermənin gizlilik prinsipini pozaraq **foto-video çəkiliş edərsə, təbliğat apararsa, seçicinin iradəsini sərbəst ifadə etməsinə təsir göstərərsə və yaxud seçicinin hərəkətinə fiziki maneçilik törədərsə**, aşağıda verilmiş göstərişə uyğun olaraq hərəkət edin:

- Qanunu pozanı dayandırın;
- Dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat verin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin;
- Lazım gəldiyi təqdirdə, səsvermə otağının giriş qapısını bağlayın;
- İmkan daxilində faktı video çəkilişlə (telefon və yaxud kameradan istifadə edərək) qeydə alın;
- Pozuntunun aradan qaldırıldığı andan seçki komissiya sədrinin razılığı ilə polis işçiləri səsvermə binasını tərk edirlər.

1.5. Əgər vətəndaş və ya vətəndaşlar qrupu yaxud səsvermə binasında olmaq hüququ olan şəxs **komissiyanın fəaliyyətinə mane olmağa yaxud fəaliyyətinə qarışmağa cəhd edərsə, bu isə səsvermə prosesinin ləngiməsinə, pozulmasına yaxud nəticələrə təsir göstərmək təhlükəsini yaradarsa,** aşağıda verilmiş göstərişə uyğun olaraq hərəkət edin:

- Asayişi pozan şəxslərə səsvermə binasında asayişi qorumalarına göstəriş verin və izah edin ki, əks halda səsvermə binasından çıxardılacaqlar;
- Tələbin laqeyd qarşılanması halında, komissiya səsvermə binasından həmin şəxsin çıxarılması haqqında qərar qəbul etməlidir, bu barədə müvafiq akt tərtib olunmalıdır;
- Əgər həmin şəxs komissiyanın çıxarılma haqqında qərarına riayət etmirsə, dərhal hüquq-mühafizə orqanlarına komissiya tərəfindən alınmış qərarın yerinə yetirilməsinə yardım məqsədilə müraciət edin;
- Dairə Seçki Komissiyasına məlumat verin;
- İmkan daxilində faktı video çəkilişlə (telefon və yaxud kameradan istifadə edərək) qeydə alın;
- Seçki sənədlərinin (bülletenlərin) və seçki qutusunun qorunmasını təmin edin;
- Lazım gəldiyi təqdirdə, səsvermə otağının giriş qapısını bağlayın;
- Pozuntunun aradan qaldırıldığı andan seçki komissiya sədrinin razılığı ilə polis işçiləri səsvermə binasını tərk edirlər.

## NƏZƏRƏ ALIN

Səsvermə prosesinin təhlükəsizliyini qorumaq məqsədilə səsvermə binasına çağırılmış hüquq-mühafizə orqanlarının nümayəndələrinin istintaq məqsədləri üçün, Gürcüstanın orqanik qanunu "Gürcüstan Seçki Məcəlləsinin" 8-ci maddəsinin 25-ci bəndinə əsasən, səsvermə kabinasından başqa və səsvermə prosesinə mane olmadan, onların əlində olan hər hansı bir çəkiliş vasitəsi ilə (kəmərli videokamera, mobil telefon, planşet) foto-video çəkiliş etməyə hüquqları var.

1.6. Əgər səsvermə günü **səsvermə binasında işıqlar sönsə:**

- Dərhal Dairə Seçki Komissiyasına məlumat verin;
- Hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin;
- Seçki sənədlərinin (bülletenlərin) və seçki qutusunun qorunmasını təmin edin;
- Lazım gəldiyi təqdirdə, səsvermə otağının giriş qapısını bağlayın;

2. **Səsvermə binasının ətraf ərazisində** ictimai asayişi pozan, yaxud pozuntu təhlükəsi olarsa, aşağıda verilmiş göstərişə uyğun olaraq hərəkət edin:

2.1. Əgər, səsvermə binasının ətraf ərazisində vətəndaş və ya vətəndaşlar qrupunun olması, onun hərəkətindən asılı olaraq, seçki prosesini blokladığı və yaxud seçicinin hərəkətinə fiziki maneçilik törətdiyi halda, aşağıda verilmiş göstərişə uyğun olaraq hərəkət edin:

- Dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat verin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin.

2.2. Əgər seçkilərin təhlükəsizliyinin pozulma təhlükəsi haqqında məlumat və yaxud şübhəli faktiki mühit (o cümlədən, kütləvi yığıncaq, yaxud mübahisə olmadan kütləvi hərəkət etmək) varsa, bu isə böyük ehtimalla gözlənilən birbaşa,ani təhlükəni göstərmir, həmçinin,eyni zamanda seçki təhlükəsizliyinin pozulma riskini istisna etmirsə,aşağıda verilmiş göstərişə uyğun olaraq hərəkət edin:

- Dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat verin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin.

### NƏZƏRƏ ALIN

Pozuntunun aradan qaldırıldığı andan Məntəqə Seçki Komissiya sədrinin razılığı olduğu təqdirdə polis işçiləri səsvermə binasının ətraf ərazisini tərk edirlər.

İstisna hallarda, səsvermə binasının ətraf ərazisində, lakin səsvermə binasında deyil, polis işçiləri Məntəqə Seçki Komissiya sədrinin tələbi və razılığı olmadan da ola bilərlər, əgər, bu ictimai asayişin pozulmasının qarşısının alınması və ya qorunması üçün tam zəruridirsə. Bu cür zərurəti aradan qaldırmaqla polis işçiləri səsvermə binasının ətraf ərazisini tərk etməlidirlər.

3. Əgər, Dairə **Seçki Komissiyası üçün seçki inventarının, sənədlərin verilməsi məqsədi ilə daşınması zamanı** onların vaxtında çatdırılmasında gecikmə, zədələnmə və ya məhv olma təhlükəsi yaradılarsa, aşağıda verilmiş göstərişlərə uyğun olaraq hərəkət edin:

3.1. Əgər Dairə Seçki Komissiyasına seçki inventarının, sənədlərin aparılmasına vətəndaşlar tərəfindən gediləsi yolun kəsilməsi maneə törədərsə:

- Vətəndaşlara vəziyyəti izah etməyə çalışın;
- Seçki inventarını,sənədlərini nəzarətsiz qoymayın;
- Vətəndaşlar tərəfindən sizin müraciətinizə laqeydlik halında, dərhal hüquq-mühafizə orqanlarına məlumat verin;
- Dairə Seçki Komissiyasına məlumat bildirin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin.

3.2. Əgər seçki inventarının, sənədlərinin Dairə Seçki Komissiyasına aparılmasına vətəndaşlar tərəfindən gediləsi yolun kəsilməsi maneə törədilməsi açıq şəkildə qeyri-qanuni məqsəd üçün seçki inventarının, sənədlərinin oğurlanması, pozulması və ya ləğv edilməsi ifadə olunursa:

- Dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat bildirin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin.
- Seçki inventarını,sənədlərini nəzarətsiz qoymayın;
- İmkan daxilində faktı video çəkilişlə (telefon və yaxud kameradan istifadə edərək) qeydə alın.

3.3. Əgər Dairə Seçki Komissiyasına seçki inventarının, sənədlərin aparılmasına yol hadisəsi maneə törədərsə:

- Dərhal hüquq-mühafizə orqanlarını xəbərdar edin;
- Dairə Seçki Komissiyasına məlumat bildirin;
- Dairə Seçki Komissiyası və hüquq-mühafizə orqanları tərəfindən verilmiş təlimata uyğun olaraq hərəkət edin.
- Seçki inventarının, sənədlərinin qorunmasını təmin edin və nəzarətsiz qoymayın;
- İmkan daxilində şahidləri müəyyənləşdirin;
- İmkan daxilində sürücünü müəyyənləşdirin;
- İmkan daxilində faktı video çəkilişlə (telefon və yaxud kameradan istifadə edərək) qeydə alın.

Məntəqə Seçki Komissiyası seçkilərin təhlükəsizliyinin qorunmasının zəruriyyəti ilə bağlı məlumatı hüquq-mühafizə orqanlarına “**112**”-yə bildiriş göndərməklə, yaxud birbaşa bildiriş yolu ilə bildirməlidir.